# Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 17 avqust tarixli 446 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası ədliyyə orqanlarında ali xüsusi rütbəli vəzifələrin Siyahısı"nda dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 17 avqust tarixli 446 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 8, maddə 671; 2007, № 12, maddə 1223; 2009, № 12, maddə 983; 2010, № 2, maddə 80, № 7, maddə 622; 2012, № 12, maddə 1273; 2016, № 11, maddə 1826; 2017, № 6, maddə 1072; Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 7 noyabr tarixli 1670 nömrəli Fərmanı) ilə təsdiq edilmiş "Azərbaycan Respublikası ədliyyə orqanlarında ali xüsusi rütbəli vəzifələrin Siyahısı"nda "Naxçıvan Muxtar Respublikasının ədliyyə naziri - II dərəcəli dövlət ədliyyə müşaviri" abzasından sonra aşağıdakı məzmunda abzaslar əlavə edilsin:

| | |
|---|---|
| Naxçıvan Muxtar Respublikası ədliyyə nazirinin müavini | III dərəcəli dövlət ədliyyə müşaviri |
| Naxçıvan Muxtar Respublikası ədliyyə nazirinin müavini - Penitensiar Xidmətin rəisi | ədliyyə general-mayoru |

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 29 noyabr 2017-ci il*

---

Azərbaycan.- 2017.-30 noyabr.- S.2.